**Vergilər Nazirliyinin xətti ilə büdcəyə 3,8 milyard manatdan çox vəsait daxil olub**

2012-ci ilin yanvar-iyul aylarında Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 3 milyard 815 milyon 559,6 min manat təşkil etmişdir. Vergi daxilolmalarının 42,5%-i mənfəət vergisinin, 21,9%-i əlavə dəyər vergisinin, 11,9%-i fiziki şəxslərin gəlir vergisinin, 7,1%-i aksizlərin, 16,6%i isə digər vergilərin payına düşür.

Qeyri-neft-qaz sektoru üzrə 1 milyard 942 milyon 563,4 min manat vəsait daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 16,0% çoxdur.

Yanvar-iyul aylarında respublika üzrə qeydiyyatdan keçmiş vergi ödəyicilərinin ümumi sayı 43 min 429, 2011-ci ilin iyul ayının 1-dən cari ilin avqust ayının 1-dək elektron qaydada qeydiyyata alınmış fiziki şəxslərin sayı 36 min 668 olmuşdur. 1 avqust 2012-ci il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 456774-dür.

2012-ci ilin yanvar-iyul ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 90,8% təşkil etmişdir.